# Müdrikliyin, qətiyyətin, ana dilinə məhəbbətin ifadəsi




***Tarixin yaddaşında elə günlər var ki, xalqın taleyində dönüş nöqtəsi olur, milli iradənin və sarsılmazlığın simvolu kimi əbədiləşir. 1978-ci il aprelin 21-i Azərbaycan üçün məhz belə bir gün olub. Həmin gün totalitar sovet rejiminin ideoloji təzyiqlərinin tüğyan etdiyi dövrdə Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti növbədənkənar yeddinci sessiyasında respublikanın yeni Konstitusiyasını qəbul etdi.***

On bir bölmə, iyirmi iki fəsil və yüz səksən beş maddədən ibarət bu Əsas Qanunda milyonlarla azərbaycanlının qəlbində qürur hissi oyadan məqam 73-cü maddədə idi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Bu tarixi məqamın əhəmiyyətini tam dərk etmək üçün o dövrün mürəkkəb siyasi-ideoloji mənzərəsinə nəzər salmaq vacibdir.

Sovet İttifaqı rəsmi şəkildə xalqlar dostluğu və dillərin bərabərliyi prinsiplərini bəyan etsə də, reallıqda vahid "sovet xalqı" yaratmaq məqsədi güdülür, bu prosesdə rus dili bütün sahələrdə dominant mövqeyə çıxarılır, milli dillər isə müxtəlif vasitələrlə ictimai-siyasi həyatda, təhsildə və mədəniyyətdə sıxışdırılırdı.

**(davamı 10-cu səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Hələ 1930-cu illərdə milli dil məsələsini qaldıranlar "millətçi" damğası ilə repressiyalara məruz qalmış, ən yaxşı halda sürgün edilmişdilər. 1956-cı ildə Azərbaycan SSR Ali Sovetin qərarı ilə Konstitusiyaya Azərbaycan dilinin dövlət dili olması barədə maddə əlavə edilmişdi. Lakin o dövrdə respublika rəhbərliyinin qətiyyətsizliyi və Moskvanın təzyiqləri fonunda bu formal xarakter daşımış, real həyatda tətbiqi üçün ciddi struktur yaradılmamışdı. 1977-ci ildə yeni SSRİ Konstitusiyasının qəbulu ilə vəziyyət daha da kəskinləşdi. Yeni Konstitusiyada dövlət dili haqqında heç bir müddəa yox idi. Belə bir şəraitdə milli dilin konstitusion statusu məsələsini qaldırmaq böyük risk idi. Bir çox müttəfiq respublikaların rəhbərləri Moskvanın qəzəbindən çəkinərək bu addımı atmaqdan imtina etdilər. Məhz bu çətin və təhlükəli məqamda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin böyük şəxsiyyəti və milli mənafelərə sadiqliyi özünü göstərdi. Ulu öndər 1969-cu ildə respublika rəhbərliyinə gəldiyi ilk günlərdən ana dilinin qorunması və inkişafını dövlət siyasətinin prioritetlərindən hesab edirdi. Onun müxtəlif tribunalardan Azərbaycan dilində səlis, məntiqli və obrazlı çıxışları, ana dilinə dərin məhəbbəti və bu dilin incəliklərini mükəmməl bilməsi xalq arasında böyük rəğbətlə qarşılandı. Dahi lider dönə-dönə qeyd edirdi ki, dil xalqın milli kimliyinin, mənəviyyatının və varlığının əsasıdır. "Xalqı xalq edən, milləti millət edən onun ana dilidir".

1977-ci ildə SSRİ Konstitusiyasının qəbulundan sonra yeni Azərbaycan SSR Konstitusiyasının layihəsi hazırlanarkən Heydər Əliyev Azərbaycan dilinə dövlət statusunun verilməsi uğrunda qətiyyətli və prinsipial mübarizəyə başladı. Ümummilli Lider bütün təzyiqlərə və maneələrə baxmayaraq, öz prinsipial mövqeyindən bir addım belə geri çəkilmədi. Sovet İttifaqı rəhbərliyi ilə gərgin və mürəkkəb danışıqlar aparır, məsələnin mahiyyətini səbrlə izah edir, Azərbaycan xalqı üçün ana dilinin müstəsna əhəmiyyətini, onun tarixi köklərini və zənginliyini sübut etməyə çalışırdı. Ulu öndər Heydər Əliyev bu məsələnin həlli üçün birbaşa SSRİ rəhbəri Leonid Brejnevlə danışıqlar aparmış və nəhayət, onun razılığını ala bilmişdi. Bu, o dövrün reallıqları çərçivəsində böyük diplomatik və siyasi qələbə idi. Eyni zamanda ulu öndər respublikanın ziyalılarını, elm və mədəniyyət xadimlərini, bütün ictimaiyyəti bu mühüm məsələ ətrafında səfərbər etmişdi. Konstitusiya layihəsinin ümumxalq müzakirəsi zamanı xalqın iradəsi birmənalı şəkildə ifadə olundu. İnsanlar ana dilinin Əsas Qanunda təsbit olunmasını tələb edirdilər. Nəhayət, mübarizə öz bəhrəsini verdi. 1978-ci il aprelin 21-də Azərbaycan SSR Ali Sovetinin IX çağırış VII sessiyasında yeni Konstitusiya qəbul edildi. Dövlət xadimi Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində Konstitusiyanın 73-cü maddəsi ilə Azərbaycan dili respublikanın dövlət dili elan edildi. Maddədə deyilirdi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan SSR dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif müəssisələrində və başqa idarələrdə Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir". Bu, sovet ideologiyasının sərt çərçivələri daxilində əsl qəhrəmanlıq və uzaqgörənlik nümunəsi idi. İlk növbədə bu tarixi hadisə sovet rejiminin total assimilyasiya siyasəti şəraitində Azərbaycan xalqının milli kimliyinin, mənəvi dəyərlərinin və özünəməxsusluğunun qorunması yolunda atılmış ən mühüm addımlardan biridir. Çünki dilini qoruyan xalq öz varlığını qoruyur. Ana dilinə konstitusion status verilməsi milli ruhun oyanmasına, özünəinam hissinin güclənməsinə səbəb oldu. İkincisi, Heydər Əliyev bu addımı ilə həm də böyük uzaqgörənliklə gələcək müstəqil Azərbaycan dövlətçiliyinin təməl daşlarından birini qoydu. Dil dövlətçiliyin əsas atributlarından biri, milli suverenliyin ayrılmaz tərkib hissəsidir. Sovet İttifaqının dağılmasından sonra Azərbaycan öz müstəqilliyini bərpa etdikdə, artıq onun konstitusion səviyyədə təsbit olunmuş dövlət dili var idi. Bu, müstəqillik yolunda əldə edilmiş mühüm üstünlük idi. Üçüncüsü, Konstitusiyada dövlət dili statusunun təsbit olunması Azərbaycan dilinin hərtərəfli inkişafına güclü təkan verdi. Dövlət orqanlarında, təhsil, elm və mədəniyyət müəssisələrində Azərbaycan dilinin işləkliyinin təmin edilməsi və onun inkişafına dövlət qayğısı göstərilməsi öhdəliyi dilimizin tətbiq dairəsinin genişlənməsinə, yeni terminlərin yaranmasına, tədqiqatların dərinləşməsinə şərait yaratdı. Bu, Heydər Əliyevin böyük nüfuzunun və siyasi iradəsinin göstəricisi idi.



# Müdrikliyin, qətiyyətin, ana dilinə məhəbbətin ifadəsi

1978-ci il Konstitusiyasının digər mühüm cəhəti "Dağlıq Qarabağ Muxtar Vilayətinin" statusu ilə bağlı idi. Əvvəlki konstitusiyalardan fərqli olaraq yeni Əsas Qanunda "Dağlıq Qarabağın" və onun orqanlarının hüquqi statusu ayrıca bir fəsildə deyil, ümumi "Yerli dövlət hakimiyyəti orqanları" fəsli çərçivəsində müəyyən edilmişdi. Bu, gələcəkdə baş verə biləcək separatçılıq meyillərinin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edən, uzaqgörən siyasətin təzahürü idi. 1978-ci ilin aprelində qoyulan möhkəm təməl Azərbaycanın müstəqillik illərində daha da möhkəmləndirildi. 1995-ci ildə məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında dövlət dilinin məhz Azərbaycan dili olduğu birmənalı şəkildə təsbit edildi. Ulu öndərin dil siyasəti onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən yeni tarixi şəraitin tələblərinə uyğun olaraq uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dilinin qorunması, inkişafı istiqamətində mühüm addımlar atılmış, dilimizin hüquqi bazası daha da təkmilləşdirilmiş və tətbiq mexanizmləri gücləndirilmişdir. Prezident Heydər Əliyevin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun bu siyasətin əsasını təşkil edir. Ölkə başçısı bu təməl üzərində qurulan işləri davam etdirərək, dilimizin müasir dövrün çağırışlarına cavab verməsini təmin edən yeni sənədlər imzalamışdır. Xüsusilə Prezident İlham Əliyevin 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı latın qrafikalı yeni əlifbaya keçid prosesinin məntiqi davamı olaraq dərsliklərin, elmi və bədii ədəbiyyatın kütləvi şəkildə nəşrini təmin etdi. Həmin il imzalanan "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" Sərəncam isə milli elmi potensialın və biliklərin ana dilində sistemləşdirilməsi üçün mühüm addım oldu. Müasir innovasiyalar və qloballaşma dövrünün tələblərini nəzərə alan Prezident İlham Əliyev dilimizin yeni reallıqlara uyğunlaşdırılmasına xüsusi diqqət yetirir. 2013-cü il 9 aprel tarixli Sərəncamla təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" bu sahədə strateji əhəmiyyət kəsb edir. Bu proqram çərçivəsində dilimizin elektron məkanda mövqeyinin gücləndirilməsi, terminologiya bazasının zənginləşdirilməsi, dilçilik tədqiqatlarının dəstəklənməsi kimi mühüm vəzifələr müəyyən edilmişdir. Texnoloji inkişafın sürətləndiyi bir zamanda Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi xüsusi aktuallıq kəsb edir. Prezident İlham Əliyevin 2018-ci il 17 iyul tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı bu istiqamətdə görülən işlərin bariz nümunəsidir. Sərəncam informasiya texnologiyaları vasitəsilə ana dilimizin təbliği, onlayn resursların yaradılması və dilimizin rəqəmsal mühitdə davamlılığının təmin edilməsi üçün əlverişli şərait yaradır. Dövlət başçısı çıxışlarında Azərbaycan dilinin saflığının qorunmasının vacibliyini vurğulamışdır. O, dilimizə yad ünsürlərin daxil olmasının qarşısının alınması, ədəbi dil normalarına riayət edilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır. 2018-ci il 1 noyabr tarixli "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman dövlət dilindən istifadədə mövcud olan nöqsanların aradan qaldırılması, dilimizin zənginliyinin qorunması və onun düzgün tətbiqinə nəzarətin gücləndirilməsi məqsədi daşıyır.

Bu gün Azərbaycan dili özünün zəngin tarixi, dərin kökləri, geniş lüğət tərkibi və tükənməz ifadə imkanları ilə dünyanın inkişaf etmiş dilləri sırasında layiqli yer tutur. 1978-ci il 21 aprel tarixi isə sadəcə bir qanunun qəbul edildiyi gün deyil, həm də ən çətin tarixi şəraitdə belə milli mənafeləri hər şeydən üstün tutan müdrik liderliyin, xalqın sarsılmaz iradəsinin və ana dilinə tükənməz məhəbbətin parlaq təzahürü kimi tariximizin qızıl səhifələrindən birinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirdiyi dil siyasəti Azərbaycan dilinin gələcək nəsillərə bütün zənginliyi və saflığı ilə çatdırılmasının təminatıdır. Dilimizi qorumaq, inkişaf etdirmək və müasir dünyanın tələblərinə uyğunlaşdırmaq hər bir azərbaycanlının müqəddəs vətəndaşlıq borcudur.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .-2025.- №78 20 aprel .- S.1;10.